| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 05.05.2009 |
| QEYDİYYAT NÖMRƏSİ | 260 |
| ADI | “2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı”nın təsdiq edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 06-05-2009, Nəşr nömrəsi: 97), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-05-2009, Nəşr nömrəsi: 05, Maddə nömrəsi: 341) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 05.05.2009 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 010.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**“2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında şahmat sahəsində mövcud potensialı və əldə olunmuş yüksək nailiyyətləri nəzərə alaraq, şahmata dövlət qayğısının daha da artırılması, o cümlədən onun maddi-texniki təminatının möhkəmləndirilməsi, elmi-metodiki və normativ hüquqi bazasının təkmilləşdirilməsi məqsədi ilə **qərara alıram:**

1. “2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı” təsdiq edilsin.

2. Bu Sərəncamın 1-ci bəndində qeyd olunan Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlərin əlaqələndiricisi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 may 2009-cu il
260

Azərbaycan Respublikası Prezidentinin
2009-cu il 5 may tarixli 260 nömrəli Sərəncamı ilə
TƏSDİQ EDİLMİŞDİR

**2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı**

## 1. Ümumi əsaslar

### 1.1. Giriş

Azərbaycanda geniş yayılmış idman növlərindən biri olan şahmat zəngin tarixi ənənələri ilə xalqımızın mədəniyyətində özünəməxsus yer tutur. Ötən əsrin 70-ci illərindən etibarən Azərbaycan Respublikasında şahmata böyük diqqət göstərilmiş, şəhər və rayonlarda şahmat məktəbləri və klubları açılmışdır . Şahmat sahəsində əldə edilən nailiyyətlər, dünya və Avropa çempionatlarında, beynəlxalq turnirlərdə qazanılan qələbələr respublikada şahmata göstərilən marağı daha da artırmışdır. Hazırda respublikada fəaliyyət göstərən 65 uşaq-gənclər şahmat məktəblərində 40 minə yaxın uşaq və yeniyetmə məşğul olur.

Dövlət tərəfindən göstərilən yüksək qayğı Azərbaycan şahmatçılarının beynəlxalq yarışlarda yeni qələbələr qazanmalarına zəmin yaratmışdır. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdiyi vaxtdan bəri keçən müddət ərzində Azərbaycan şahmatçıları müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında ölkəni layiqincə təmsil edərək yüksək nəticələrə nail olmuş, 75 medal, o cümlədən 25 qızıl medal qazanmışlar. Hazırda Azərbaycanda 22 beynəlxalq qrossmeyster, 15 beynəlxalq usta, 8 FİDE ustası və 8 beynəlxalq hakim vardır. FİDE-nin 2009-cu ilin aprelində elan etdiyi reytinq cədvəlində Azərbaycan 153 ölkə arasında 5-ci yerdə qərarlaşmışdır.

Xalqın intellektual səviyyəsini nümayiş etdirən idman növü kimi şahmat Azərbaycanın dünyada daha geniş tanınmasında mühüm rol oynayır. 2002-ci ildə Avropa çempionatının Bakıda, 2003-cü ildə gənclər arasında dünya çempionatının Naxçıvanda keçirilməsi Azərbaycana beynəlxalq miqyasda etimadın artması kimi qiymətləndirilə bilər.

Şahmatçılarımızın uğurları və şahmat sahəsindəki mövcud potensial bu idman növünün gələcəyinin təmin edilməsi istiqamətində konkret tədbirlərin görülməsini zəruri edir. "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) ölkədə şahmatın daha da inkişaf etdirilməsi və beynəlxalq yarışlarda yeni nailiyyətlərin qazanılmasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

### 1.2. Dövlət Proqramının əsas məqsəd və vəzifələri

Dövlət Proqramının əsas məqsədi "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununa, habelə bədən tərbiyəsi və idmana aid digər normativ hüquqi aktlara uyğun olaraq şahmat sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkədə şahmatın və onun infrastrukturlarının daha da inkişaf etdirilməsini, beynəlxalq səviyyəli şahmatçıların, məşqçilərin, hakimlərin və digər şahmat mütəxəssislərinin hazırlanmasını təmin etməklə ölkənin bu sahə üzrə beynəlxalq miqyasda rolunun artırılmasından ibarətdir.

Həmin məqsədə nail olmaq üçün aşağıda göstərilən vəzifələrin yerinə yetirilməsi zəruridir:

şahmatın infrastrukturunu genişləndirmək, onun maddi-texniki bazasını möhkəmləndirmək;

- şahmat mütəxəssislərinin hazırlanması və əlavə təhsili sistemini təkmilləşdirmək; [1]
- şahmatın tədrisini ümumi təhsil müəssisələrində dərs proqramına daxil etmək;
- şahmatla bağlı məlumat-maarifçilik və təbliğat işini gücləndirmək;
- şahmat sahəsində qabaqcıl texnologiyaların, kompüter və kompüter proqramlarının tətbiqi işini sürətləndirmək;
- beynəlxalq şahmat təşkilatları ilə əlaqələri inkişaf etdirmək;
- əhalinin bütün təbəqələrinin şahmat məktəbləri və klublarından istifadəsinə şərait yaratmaq.
-

### 1.3. Azərbaycan Respublikasında şahmatın inkişafının əsas istiqamətləri

2009-2014-cü illərdə ölkədə şahmatın inkişafının aşağıdakı əsas istiqamətlər üzrə həyata keçirilməsi nəzərdə tutulur:

- dünyada şahmat sahəsində qabaqcıl dövlətlərin təcrübəsindən istifadə edərək Azərbaycan Respublikasının ümumi təhsil

müəssisələrində mərhələli surətdə şahmatın tədrisinə başlanılması;[2]

- şahmat üzrə Azərbaycan dilində yeni təhsil proqramlarının işlənib hazırlanması;
- şahmat üzrə metodik vəsait və tövsiyələrin hazırlanması;
- şagird və tələbələrin şahmat üzrə çempionatlarının təşkil edilməsi;
- şahmatçıların və şahmat üzrə milli yığma komandaların beynəlxalq yarışlarda, o cümlədən dünya və Avropa çempionat və birinciliklərində, Ümumdünya Şahmat Olimpiadasında, klub komandalarının dünya və Avropa turnirlərində iştirakının təmin edilməsi;
- şahmat üzrə mütəxəssislərin hazırlanması sisteminin təkmilləşdirilməsi;
- şahmatın təbliğ edilməsi;
- şahmatın inkişafı sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi.

### 1.4. Gözlənilən nəticələr

Dövlət Proqramının həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilir:

- cəmiyyətdə sağlam həyat tərzi prinsiplərinin tətbiq edilməsi;
- şahmatın populyarlaşması və maddi-texniki bazasının inkişafı nəticəsində ölkənin ümumi təhsil, ali və orta ixtisas təhsili müəssisələrində, uşaq-gənclər şahmat idman məktəblərində şahmatla məşğul olan uşaq və gənclərin sayının artması;[3]
- beynəlxalq miqyasda Azərbaycan Respublikasını təmsil etməyə layiq olan yüksək səviyyəli peşəkar şahmatçıların hazırlanması.

### 1.5. Dövlət Proqramının maliyyə təminatı

Dövlət Proqramı dövlət büdcəsindən ayırmalar və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdiriləcəkdir.

## 2. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı

| | **Tədbirin adı** | **İcraçılar** | **İcra müddəti (illər üzrə)** |
|---|---|---|---|
| **2.1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | | |
| 2.1.1. | Şahmatla bağlı normativ hüquqi sənədlərin təkmilləşdirilməsi | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2010 |
| 2.1.2. | Şahmatçıların transferi məsələlərinin FİDE normalarına və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunlaşdırılması | Gənclər və İdman Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2010 |
| 2.1.3. | "Gənclər, bədən tərbiyəsi və idman sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif Sorğu Kitabçası"na şahmat üzrə təlimatçı-idmançı və şahmat üzrə məşqçi-müəllim vəzifələrinin əlavə edilməsi | Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2010 |
| 2.1.4. | Hər bir yüksək dərəcəli şahmatçı üçün fərdi inkişaf proqramının hazırlanması | Gənclər və İdman Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2014 |
| 2.1.5. [4] | Dünya və Avropa səviyyəli turnirlərdə iştirakı ali, orta ixtisas və ümumi təhsil müəssisələrində imtahan dövrünə düşdüyü hallarda şahmatçıların həmin dövrdə imtahanlardan azad edilməsi mexanizminin hazırlanması | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2010 |
| **2.2. Şahmatın inkişafı sahəsində fəaliyyətin təşkili və idarə olunması** | | | |
| 2.2.1. | Respublika Olimpiya İdman Liseyində şahmat bölməsinin açılması | Gənclər və İdman Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2010 |

| | | | |
|---|---|---|---|
| 2.2.2. | İdman ustalığının artırılması məqsədi ilə qabaqcıl şahmatçıların şahmatın inkişaf etdiyi ölkələrə ezam olunması, dünyanın tanınmış şahmat ustalarının Azərbaycan Respublikasına dəvət olunaraq istedadlı şahmatçılarla məşqlərin və eynivaxtlı oyun seanslarının təşkil edilməsi | Gənclər və İdman Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2014 |
| 2.2.3. | Qrossmeyster məktəblərinin təşkil edilməsi | Gənclər və İdman Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2014 |
| 2.2.4. | Azərbaycanın qabaqcıl məşqçi və hakimlərinin beynəlxalq seminarlara ezam olunması | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2014 |
| 2.2.5. | Azərbaycan Respublikanın görkəmli şahmat ustalarının xatirəsinə və ya şərəfinə, o cümlədən əlamətdar günlərə həsr olunmuş turnirlərin keçirilməsi | Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, yerli icra hakimiyyəti orqanları (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2014 |
| 2.2.6. | Azərbaycanda şahmat üzrə "Prezident Kuboku" adı altında FİDE-nin yüksək kateqoriyalı ənənəvi superturnirinin təşkili və keçirilməsi | Gənclər və İdman Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | mütəmadi |
| 2.2.7. | Klub komandaları arasında dünya və Avropa çempionatlarında iştirak edəcək Azərbaycanın klub komandasının yaradılması və onun hazırlığının təmin edilməsi | Gənclər və İdman Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2014 |
| 2.2.8. | Beynəlxalq və yüksək reytinqli turnirlərdə uğurlu nəticələr göstərmiş idmançılar üçün təcrübəli və beynəlxalq dərəcəli məşqçilərin cəlb edilməsi | Gənclər və İdman Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2014 |
| 2.2.9. | Şəraiti olan şahmat məktəbləri və klublarının dərsdənkənar vaxtlarda əhalinin bütün yaş təbəqələri nümayəndələrinin fəaliyyəti üçün açıq olması | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | mütəmadi |
| **2.3. Şahmatın maddi-texniki bazasının möhkəmləndirilməsi** | | | |
| 2.3.1. | Şahmat məktəbləri və klublarının maddi-texniki bazasının möhkəmləndirilməsi, onların kompüter avadanlıqları, kompüter proqramları və müasir şahmat inventarları ilə təmin edilməsi, həmçinin geniş zolaqlı internet şəbəkəsinə qoşulması | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, *Rabitə və Yüksək Texnologiyalar Nazirliyi* (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla)[5] | 2009-2014 |
| 2.3.2. | Yığma komandaların hazırlığının müasir tələblərə uyğun yüksəldilməsi | Gənclər və İdman Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2014 |
| 2.3.3. | Şahmat Sarayının tikintisi | Maliyyə Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla)[6] | 2009-2014 |
| **2.4. Kadr təminatı** | | | |

| | | | |
|---|---|---|---|
| 2.4.1. | Azərbaycanın qabaqcıl şahmatçılarının Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına şahmat ixtisası üzrə qəbul imtahanları zamanı ümumi fiziki hazırlıq normalarının qismən endirilməsi və şahmat bölməsinə tələbə qəbulu sayının artırılması | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2010-2011 |
| 2.4.2. | Şahmat üzrə məşqçi-müəllimlər və hakimlər üçün ixtisasartırma kurslarının təşkil edilməsi | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2014 |
| **2.5. Elmi-metodiki və informasiya təminatı** | | | |
| 2.5.1. [7] | Yeni şahmat dərslikləri, metodik vəsaitləri və təhsil proqramlarının hazırlanması | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2014 |
| 2.5.2. | Şahmat üzrə mətbuat orqanının bərpa edilməsi | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2010 |
| 2.5.3. | Milli yığma komandaların psixoloqlarla təmin edilməsi | Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi (Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla) | 2009-2014 |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610)**
2. 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)**
3. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101)**
4. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**)

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nda 1.2-ci bəndin ikinci hissəsinin üçüncü abzasında "**yenidən hazırlaması**" sözləri "**əlavə təhsili**" sözləri ilə, dördüncü abzasında "**ümumtəhsil məktəblərində**" sözləri "**ümumi təhsil müəssisələrində**" sözləri ilə əvəz edilmişdir.

[2] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nda 1.3-cü bəndin ikinci abzasında "**ümumtəhsil məktəblərində**" sözləri "**ümumi təhsil müəssisələrində**" sözləri ilə, üçüncü abzasında "**tədris**" sözü "**təhsil**" sözü ilə əvəz edilmişdir.

[3] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nda 1.4-cü bəndin üçüncü abzasında "**ümumtəhsil məktəblərində**" sözləri "**ümumi təhsil**" sözləri ilə əvəz edilmişdir.

[4] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nda 2.1.5-ci bənddə "**ümumtəhsil məktəblərində**" sözləri "**ümumi təhsil müəssisələrində**" sözləri ilə əvəz edilmişdir.

[5] 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**) ilə "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nın 2. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 2.3.1-ci yarımbəndinin "İcraçılar" sütununda "**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi**" sözləri "**Rabitə və Yüksək Texnologiyalar Nazirliyi** " sözləri ilə əvəz edilmişdir.

[6] 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, 141,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610)** ilə "2009 — 2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə "Tədbirlər Planı"nın 2.3.3-cü bəndinin "İcraçılar" sütununda "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101)** ilə "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nın 2.3.3 cü yarımbəndində "**İqtisadi İnkişaf**" sözləri "**İqtisadiyyat və Sənaye**" sözləri ilə əvəz edilmişdir.

[7] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nda 2.5.1-ci bənddə "**tədris**" sözü "**təhsil**" sözü ilə əvəz edilmişdir.